**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

**№ 36 (1164) 23 fevral - 24 fevral 2016-cı il**

# VƏTƏNİN ZAQATALA ADLI İNCİSİ

(əvvəli ötən sayımızda)

**Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev tərəfindən rayonlarda sənaye zonalarının yaradılmasının sürətləndirilməsi barədə tapşırıq verilmişdir. Bununla əlaqədar rayonun mövcud sənaye infrastrukturunun vəziyyəti və yeni sənaye zonalarının yaradılması perspektivləri araşdırılmışdır.**

Zaqatala şəhərinin 2015-ci ildə təsdiq edilmiş yeni baş planında yeni sənaye zonalarının salınması şəhərə Aşağı Tala kəndindən yeni birləşdirilmiş ərazidə və həmçinin şəhərin şimal-qərb hissəsində (yeni inşa edilmiş sutəmizləyici qurğılar kompleksinin yanında) nəzərdə tutulmuşdur.

Daha bir sənaye zonasının Yevlax-Zaqatala-Gürcüstan Respublikası Dövlət sərhədi magistral avtomobil yolunun kənarında, "İntertobacco" tütün zavodunun yaxınlığında yaradılması üçün "RR" şirkətlər qrupu Rayon İcra Hakimiyyətinə müraciət etmişdir. Layihəyə əsasən burada yaşayış binalarının, kənd təsərrüfatı bazarının, mebel satış mərkəzinin, regional ticarət mərkəzinin, un məmulatları zavodunun, dəyirmanın, quru meyvələrin istehsalı və qablaşdırılması sexlərinin, tikiş fabrikinin, ət kəsimi sexinin və soyuducu kameraların, regional tikinti materiallarının satışı bazarının, beton konstruksiyaların istehsalı sexinin tikintisi və 600-700 nəfər üçün yeni iş yerlərinin açılması nəzərdə tutulur. Hazırda "RR" şirkətlər qrupu tərəfindən bu məqsədlə layihə-smeta sənədlərinin işlənilməsinə başlanmışdır.

Rayonda sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılmış, 15 sahibkarlıq obyektinin tikintisinə razılıq verilmiş, 54 layihə üzrə 506,8 min manat həcmində güzəştli kreditlər verilmişdir...



> **"... Bu gün Azərbaycan regionun güclü dövlətinə çevrilməklə özü öz həyatını, öz siyasətini, öz yolunu müəyyənləşdirib. Bizim güclü ordumuz və həm də möhkəm, inkişaf edən iqtisadiyyatımız var. Biz məhsul idxal edən ölkədən məhsul ixrac edən ölkəyə çevrilirik. Bu, bizim uğurumuzdur!"**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

...2015-ci ildə büdcəyə vergi və tədiyyələr üzrə 7,4 milyon manat vəsait daxil olmuş, proqnoz tapşırıqlar 102,2 faiz icra edilmiş, büdcəyə 160,6 min manat cox vəsait daxil olmuşdur. Lakin buna baxmayaraq 2015-ci ildə proqnoz tapşırıqlar vergi növləri üzrə tam icra edilməmiş, (10-dan 6-sı icra edilmiş) bunun nəticəsində büdcəyə keçən ilin müvafiq dövrü ilə müqayisədə 183,5 min manat az vəsait daxil olmuşdur. Gəlirlərin 7,3 faizi dövlət sektorunun, 92,7 faizi qeyri-dövlət sektorunun payına düşmüş, vergi qanunvericiliyini pozan 988 vergi ödəyicisinə 907,4 min manat həcmində maliyyə sanksiyası tətbiq edilmişdir. Ancaq o da həqiqətdir ki, bizim bütün bölgələrimiz dövlətdən verilmiş dotasiyalar hesabına yaşayırlar. Ancaq biz çalışmalıyıq ki, hər bir bölgə özünə xas olan xüsusiyyətlərdən, spesifik coğrafi və ərazi imkanlarından istifadə edərək, özümüzü maksimum dərəcədə yerli istehsalın artırılması hesabına təmin edək. Rayonumuzda sahibkarlığı inkişaf etdirməklə, əmək ehtiyatlarından, yerli potensialdan səmərəli istifadə edək, iqtisadiyyatımızın davamlı və intensiv inkişafına, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluğun səviyyəsinin azaldılmasına nail olaq. Ən əsası isə dövlətdən alınan dotasiyanın həcmini azaldaq, sosial problemlərin həllinə nail olaq.

Hesabat ilində mərkəzləşdirilmiş xərclərdən 16 milyon 652 min manat subsidiya alınmış, büdcə xərcləri 23 milyon 218 min manat və ya 91,5 faiz icra olunmuşdur. 2015-ci il ərzində rayonda 673 pensiya işi təyin edilmiş, 17036 pensiyaçıya xidmət göstərilmiş, 5,9 milyon manat məcburi dövlət sosial sığorta haqları yığılmış, proqnoz tapşırıqlar 81,8 faiz icra edilmiş, sığortaedənlərin sosial sığortaya cəlb olunması, məcburi dövlət sosial sığorta haqları ödəyicilərinin qeydiyyata alınması ilə bağlı 82 fiziki şəxsə qarşı maliyyə sanksiyaları tətbiq edilmişdir.

2015-ci ildə rayonda 4522 nəfərə sosial müavinət, 379 nəfərə Prezident təqaüdü, 204 nəfərə əlillik, 16 nəfər şəhid ailəsinə şəhidlik vəsiqəsi, 30 nəfərə müalicəyə getmək üçün sanator-kurort putyovkası verilmiş, 1944 ailənin 8444 üzvünə (hər ailəyə orta hesabla 156,0 manat) ünvanlı sosial yardım verilmiş, 217 nəfər tək-kimsəsiz qocalara xidmət göstərilmişdir. Rayonda Qarabağ əlilləri və Şəhid ailələri üçün 9-u şəhərdə, 12-i kəndlərdə olmaqla 21 fərdi yaşayış evinin tikintisi davam etdirilmişdir.

Hesabat dövrü ərzində məşğulluq xidməti orqanları tərəfindən 974 nəfər işaxtaran kimi qeydiyyata alınmış, 520 nəfər münasib işlə təmin olunmuş, 9 nəfərə işsizlik müavinəti təyin edilmiş, 39 nəfər peşə hazırlıq kurslarına, 40 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuş, rayonda keçirilən "Əmək yarmarkası"nda 107 nəfər işaxtaran və işsizə işlə təmin olunmaları üçün göndəriş verilmişdir...

### *Aqrar sektorun inkişafı üçün yeni stimullar*

Son illərdə aqrar sektorda həyata keçirilmiş məqsədyönlü tədbirlər sayəsində rayonda 110,6 milyon manatlıq məhsul istehsal edilmiş, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 7,1 faiz çoxdur. Rayonda 2015-ci ilin məhsulu üçün 12148 ha sahədə payızlıq taxıl, o cümlədən 8417 ha sahədə buğda, 14665 ha sahədə yazlıq bitkilər, o cümlədən 5910 ha sahədə qarğıdalı, 139 ha sahədə paxlalılar, 468 ha sahədə tütün, 2 ha sahədə şəkər çuğunduru, 252 ha sahədə dən üçün günəbaxan, 25 ha sahədə qazanlıq gülü, 1540 ha sahədə kartof, 2100 ha sahədə tərəvəz, 788 ha sahədə bostan bitkiləri və 3441 ha sahədə yonca əkilmişdir. Ötən ildə 34411 ton taxıl, o cümlədən 23471 ton buğda, 32623 ton qarğıdalı, 266 ton lobya, 92 ton şəkər çuğunduru, 1204 ton tütün, 399 ton dən üçün günəbaxan, 8,6 ton qızıl gül ləçəyi, 18482 ton kartof, 20478 ton tərəvəz, 8880 ton bostan məhsulu, 58066 ton quru ot, 29699 ton meyvə, 813 ton üzüm, 54 ton yaşıl çay yarpağı istehsal olunmuşdur. 2015-ci ilin məhsulu üçün becərmə aparmış buğda istehsalçılarının maddi marağının artırılması məqsədi ilə 181,6 min manat, əkin sahəsinin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına görə isə 885,2 min manat subsidiya verilmiş, keçən ildə fermer təsərrüfatlarına 305,9 min manat dəyərində güzəştli qaydada mineral gübrələr satılmışdır.



### *Heyvandarlığın əhəmiyyəti - rayon rəhbərliyi qışlaqları gəzir*

Heyvandarlığın inkişaf etdirilməsi üçün 2015-ci ildə 15359 hektar dövlət fonduna aid yay otlaq sahələri fermerlərin icarəsinə verilmişdir. Rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanma yolu ilə 5496 baş ana maldan 4400 baş cins bala əldə edilmiş, iri buynuzlu mal-qaranın baş sayı 61184 başa, qoyun-keçilərin baş sayı 141387 başa çatdırılmış, rayonda 8979 ton diri çəkidə ət, 43179 ton süd, 21275 min ədəd yumurta istehsal edilmişdir. Bundan başqa damazlıq təsərrüfatının inkişaf etdirilməsi məqsədilə lizinq yolu ilə rayona 4 baş yüksək məhsuldar iribuynuzlu mal-qara gətirilmişdir.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ